

*Tahir Kəbirli*

## *Yetişər zəfər çağı*

### Humay qayasını düşünərkən

Görüşdük son dəfə biz
Onunla illər öncə
Bir qaranlıq gecədə,
Bozarmışdı necə də!..
Ucalsa da qarşımda
Məğrur Humay qayası,
Qarışmışdı havası.
Uzadıb əllərimi
Sığal çəkdim üzünə.
Qucaqlaşdıq, uşaqtək.
Sığındım daş dizinə...
Hiss etdik ki, bu sondu,
Baxışlar qar elədi,
Bağrımız buza döndü.
Duyğular, düşüncələr,
Eh, neçə bölüm oldu
O vaxtdan, o zamandan
Aramızda ayrılıq
Tabutsuz ölüm oldu,
Sübutsuz ölüm oldu...
Haçandır ağarıbdır
Uca zirvənin başı.
Ancaq pozulmayıbdır
Heç dağların yaddaşı.
Min ümüdlə, inamla
Gözlər elin yolunu.
Qayalar qol uzadıb
Kəsər selin yolunu.
Sözünü, kəlməsini
Dumana, qara yazar...
Eşqini, sevgilisini
Həsrət yollara yazar.
Buludların sinəsi
Əzablardan sökülür,
Elə bil, qəzəbindən
Daşlar qopub, tökülür.
Dözmək olmur bu dərdə,
O dağlar çənə qalıb.
Xəyanətin əmriylə
Dağlar düşmənə qalıb.
Fəqət ümid itməyib,
Qəlbdə güman yaşayır.
Ruhumuzda əbədi
Doğma ünvan yaşayır.
Aylar illər ötsə də,
Dillər üzülmür haqdan.
Xəyallar qanadlanıb,
Qalxır ulu torpaqdan...
Fikir aparır məni
Yenə dağlara sarı.
Qayaların anatək
Açılıbdır qolları...
Çevrilib gündoğana
Dəlidağa yollandım.
Axdım gur sular ilə,
Ocaqlarda qalandım.
Boylandım Pir tərəfə,
Məndən aman istədi.
Baxanda Yüzbulağa
Dərdə dərman istədi.
Gördüm geniş yaylaqlar,
Ellərdən hay gözləyir.
Tənha qalan yamaclar
Sevincdən pay gözləyir...
Üçtəpəyə boylandım.
Sanki, alışdım, yandım.
Hayqırdım, haray çəkdim,
Səsim düşdü dərəyə.
Gözlərim yaş axıtdı
Bu qəmli mənzərəyə.
Kəbirlinin, Avşarın
Kəhrizli obasının
Ocaqları sönmüşdü.
Önümdə, elə bil ki,
Dərd hasara dönmüşdü.
Yoldan keçən sürülər,
Dəvələr daş olmuşdu.
Təpələrin, düzlərin
Rəngi tamam solmuşdu...
Ayıldım xəyallardan,
Dərin bir fikrə daldım.
Sual verdim özümə
Tarixdən cavab aldım.
Bu torpağı dağları
Oğuz, Turan babalar
Bizə miras qoyublar.
Yurdumuza gəc baxan
Bəbəkləri oyublar.
Hər daşı, hər qayanı
Yadlardan qoruyublar
Bu gün də ər igidlər
Dayanıb keşiyində
Doğma elin, vətənin.
Od-alova çevrilib
Önündə qart düşmənin.
Ümid itməyib hələ,
O yerlərə dönməyə
Bir dəli gümanım var,
Yenilməz inamım var.
Bizim məğrur ordumuz
Qalxıb ayağa ,əlbət,
Xilas edər tezliklə
Müqəddəs torpaqları.
Əsir qalan dağları.
Əzilər yağıların
Başı ilan başıtək.
Azad olar biryolluq
Həm Şuşam, Qarabağım,
Laçınım, Kəlbəcərim,
Bayraqımtək hər yerdə
Dalğalanar zəfərim.

## *Səhv etmirikmi?*

Hər sözün, kəlmənin vardır öz yeri,
Yol azıb uzağa çox getmirikmi?
Beynin məhsuludur hiss, düşüncətək,
"Ürək sevir" deyib, səhv etmirikmi?

Ürək canımızda bir can yaşadır,
Seltək qan axıdır damarlarından.
Ancaq məhəbbət də, eşq də, sevgi də,
Daim bəhrələnir ağlın barından.

İnsan doğularkən onunla birgə,
Doğulur hər dəfə hiss də, duyğu da.
Fəqət böykdükcə, yaşı artıqca,
Böyüyür şüuru, ağlı, ruhu da...

Ağıl bir kitabdır, aç səhifələ,
Arzular, sevgilər vərəqlənəcək.
Dolub mənalarla, fikir yüküylə
Ömür sevinəcək, fərəhlənəcək...

Təsisçi və baş məsləhətçi:
**Aqil ABBAS**

Baş redaktor:
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC-nin mətbəəsində çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİ
kod
Müxbir hesab
S.V
AZ42AIIB38
in